http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 13 (1631) 12 iyul 2016 - cı il Qiyməti 50 qəpik

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dünyada təhlükələrin artdığını, iqtisadi böhranın daha da dərinləşdiyini və bütün ölkələrin bu böhrandan müxtəlif formada əziyyət çəkdiyini deyən Prezident İlham Əliyev Azərbaycanda uğurlu inkişafın təmin edildiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin həll olunduğunu bildirdi. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı aprel ayında təmas xəttində Ermənistanın törətdiyi təxribatın qarşısının ordumuz tərəfindən alındığını, əks-hücum əməliyyatı nəticəsində 2 min hektar ərazinin işğaldan azad edildiyini diqqətə çatdırdı. “Münaqişə tezliklə həllini tapmalı, status-kvo dəyişilməlidir”, - deyən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini vurğuladı.



Bu ilin altı ayında ölkəmizin xarici siyasətinin fəal olduğunu, 10-dan çox dövlət və hökumət başçısının Azərbaycana səfərə gəldiyini, özünün də xaricə səfərlərinin beynəlxalq əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etdiyini deyən Prezident İlham Əliyev çıxışında iqtisadi inkişaf proseslərindən də danışdı, cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye və kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu dedi.

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, kənd təsərrüfatı naziri Heydər Əsədov, “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə 2016-cı ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə etdilər.

Prezident İlham Əliyev yekun nitqində prioritet istiqamətlər üzrə qarşıda duran vəzifələrin yerinə yetirilməsinin vacibliyini vurğuladı.

## Bu sayımızda






## Heç vaxt unudulmayan “Məzun Günü”

Növbəti uğurlu əməliyyata imza atıldı 2



TİBBİ ŞURANIN I YARIMİLƏ HƏSR OLUNMUŞ YEKUN İCLASINDA 2

«QIZIL GÖRÜŞ» (ATU-nun 1966-cı il məzunlarının görüşü) 6

Fiziki sağlamlıq və vətənpərvərlik gənclərimizin ən böyük amalıdır 7

**İyulun 5-də ATU-nun Tədris Terapevtik Klinikasının Tibbi Şurasının I yarımilə həsr olunmuş yekun iclası keçirilib.**

# TİBBİ ŞURANIN I YARIMİLƏ HƏSR OLUNMUŞ YEKUN İCLASINDA





İclası giriş sözü ilə açan klinikanın direktoru, professor Surxay Musayev əvvəlcə professor-müəllim heyətini, tibbi personalı müqəddəs Ramazan Bayramı münasibətilə təbrik edib, ibadətlərinin və dualarının qəbul olunmasını arzulayıb.

Eyni zamanda terapevtik və pediatrik propedevtika kafedrasının professoru Cəbrayıl Məmmədovu, fizioterapiya bölməsinin müdiri, dosent Paşa Mehdiyevi də yubileyləri münasibətilə təbrik edən S.Musayev hər iki yubilyarın uğurlarla zəngin bioqrafiyasından söhbət açıb, onlara can sağlığı və gələcək işlərində müvəffəqiyyətlər diləyib.

Bundan sonra klinikanın 2016-cı ilin I yarımili ərzində müalicə-diaqnostik fəaliyyəti ilə bağlı baş həkim, dosent Ramin Bayramlının hesabatı dinlənilib.

R.Bayramlı cari ilin yanvar-iyun aylarının müqayisəli diaqramını diqqətə çatdıraraq qeyd edib ki, hesabatda müalicə-diaqnostik fəaliyyətimizin əsasən stasionar hissəsi öz əksini tapmışdır: "Hər ilin sonu müalicə-diaqnostik fəaliyyətimizin ümumi geniş hesabatı olur, o cümlədən də diaqnostik, poliklinik bölmələrin fəaliyyəti işıqlandırılır. İndi isə əsasən stasionar fəaliyyətlə bağlı hesabat diqqətinizə çatdırılacaq".

Klinikanın ümumi terapiya şöbəsinə I yarımil ərzində 72 stasionar xəstə qəbul edildiyini, 62 nəfərin evə yazıldığını söyləyən baş həkim gündüz stasionarına qəbul edilən xəstə sayının bu şöbədə 25 nəfər, çıxanların sayının isə 21 nəfər təşkil etdiyini deyib.

Onu da bildirib ki, bu müddət ərzində xəstə sayının qəbuluna görə ən çox kardiologiya, endokrinologiya, hematologiya şöbələri fərqlənib: "Bu da ilk növbədə klinikamıza olan yüksək etimadın və peşəkar həkim kollektivimizin birgə səyinin nəticəsidir. Endokrinologiya şöbəsinin stasionarına qəbul edilən xəstələr 258 nəfər, evə yazılanlar 243 nəfər, gündüz stasionarı üzrə qəbul edilənlər 90 nəfər, çıxanlar 86 nəfər olub. Şöbə üzrə qəbul edilən xəstələr əsasən diabetik profilli xəstələr olmuşdur. Klinikanın kardiologiya şöbəsinə kardioloji profilli 239, terapevtik profilli 2 nəfər olmaqla 241 nəfər xəstə qəbul olunub. Ümumilikdə çıxan xəstələrin sayı 554 nəfər təşkil edib. Daxil olan xəstə ilə çıxan xəstənin sayındakı fərq angioqrafiya bölməsinə daxil olan xəstələrin müəyyən invaziv prosedurlardan sonra kardiologiya şöbəsinə yatışa göndərilməsi ilə bağlıdır".

Baş həkimin sözlərinə görə, klinikanın revmatologiya, qastroenterologiya şöbəsi də il ərzində kifayət qədər ağır, həm revmatologi, həm qastroenteroloji profildən geniş diaqnostik spektrli xəstələr qəbul edib. Ümumilikdə revmatoloji profil üzrə 148, qastroenteroloji profil üzrə 44, terapevtik profil üzrə 1 nəfər, cəmi 193 stasionar xəstə qəbul edilib.

Xəstə qəbulunun intensivliyinə görə endokronologiya, hematologiya, kardiologiya, pulmonologiya-allerqologiya, nefrologiya şöbələrinin öndə olduğunu deyən baş həkim gündüz stasionarına isə endokronologiya və hematologiya şöbələrində daha çox xəstə qəbul edildiyini söyləyib.

2016-cı ilin I yarımilində klinikaya ümumilikdə 2796 xəstə qəbul edildiyini bildirən R.Bayramlı klinikanın fəaliyyət göstərdiyi son 6 il müddətində ilk dəfə çox cüzi də olsa azalmanın müşahidə olunduğunu diqqətə çatdırıb. Belə ki, 2015-ci illə müqayisədə bu azalma 6% olub.

Klinikada fəaliyyət göstərən Ürək Damar Mərkəzinin ölkəmizdə bütün kardioloji prosedurları həyata keçirən yeganə mərkəz olduğunu, hematologiya şöbəsinin isə universitetimizin tarixində ilk dəfə olaraq klinikamızda yaradıldığını bildirən baş həkim reanimasiya və intensiv terapiya şöbəsinin bu yarım il ərzində çox ağır xəstələr qəbul etməsini, buraya daxil olan xəstələrin peşəkar həkimlərin səyi nəticəsində sağlamlıqlarına qovuşmasını, bu barədə ölkə mətbuatında informasiyaların dərc olunmasını da müsbət hal kimi dəyərləndirib.

Klinikanın əməkdaşlarının il boyu beynəlxalq konfranslarda və simpoziumlarda iştirakına da toxunan R.Bayramlı ATU rezidentlərinin 4-cü Elmi-təcrübi Konfransının (ATUREK) yüksək səviyyədə keçirilməsindən və onların istər poster sayına, istərsə də elmi işlərinin keyfiyyətinə görə seçilməsindən də məmnunluqla danışıb.

Həkimlərin və tibb bacılarını daim təkmilləşdirilməsi, mütəxəssislərimizin ən son yeniliklərdən xəbərdar olması üçün klinika rəhbərliyinin hər cür şərait yaratması da hesabatda öz əksini tapıb.

İclası yekunlaşdıran S. Musayev 2016-cı ilin yanvar-iyun ayları ərzində professor-müəllim heyətinin öz işlərini çox yüksək səviyyədə həyata keçirdiyini vurğulayıb.

Kliinikanın bu günə qədər ən ağır vəziyyətdə olan xəstələri qəbul etdiyini xatırladan direktor hətta ən ucqar rayonlardan belə bizə etimad göstərib gələn yetərincə insanların olduğunu bildirib: "Həkimlərimiz də çalışır ki, bu insanların klinikaya olan inamlarını doğrultsunlar və onları tam sağlam şəkildə öz isti ocaqlarına göndərsinlər. Bu, bizim 6 il ərzində qazandığımız imicdir və bu missiyanı qorumaq burada çalışan hər kəsin üzərinə düşən əsas vəzifələrdən biridir".

Səhiyyə nazirliyinin 65 saylı əmrinə xüsusi diqqət çəkən S.Musayev artıq bu ildən etibarən klinikada da Hepatit (B, C) və QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) ilə bağlı analizlərin aparılacağını, klinikaya daxil olan hər kəsdə bu infeksiyaların olubolmadığının sadə üsulla yoxlanılacağını bildirib.

İclas işini cari məsələlərin müzakirəsi ilə yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Növbəti uğurlu əməliyyata imza atıldı

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında 39 yaşlı qadının üzündə mürəkkəb əməliyyat uğurla icra olunub. Onun üzünün 2/3-ni əhatə edən şiş götürülüb. Xəstə bundan əvvəl bir neçə dəfə həm ölkəmizdə, həm də Türkiyə və Rusiyada əməliyyat olunub, kimyəvi dərman və şüa terapiyası alıb.**





Sonuncu dəfə Türkiyədə icra olunan əməliyyat zamanı xəstədə şiş götürüldükdən sonra yaranan toxuma qüsuru sərbəst damar ayaqcıqlı dililmə aradan qaldırılıb. Ancaq bu əməliyyatdan sonra köçürülən dilimin nahiyəsində şişin residivi aşkar edilib.

ATU-nun Tədris Cərrahiyyə Klinikasında xəstənin kliniki rentgenoloji müayinəsi aparılıb. Daha sonra Almaniyada çalışan həmyerlimiz - plastik rekonstruktiv mikrocərrahiyyə mütəxəssisi dr.Kamil Axundov, ağızüz və çənə cərrahiyyəsi şöbəsinin müdiri, tibb elmləri namizədi, dr. Məhəmməd Davudovla birgə konsilium keçirilib. Nəticədə şişin geniş sərhədlərdə götürülməsi, köçürülən dilimin götürülməsi və əmələ gələn qüsurun ALT sərbəst damar ayaqcıqlı dilimlə aradan qaldırılması haqqında qərar qəbul edilib.

11 saat davam edən əməliyyat zamanı üzün təxminən 2/3 hissəsi rezeksiya sahəsinə daxil edilib və mövcud qüsur 13x4 sm ölçüsündəki sərbəst damar ayaqcıqlı dililmə aradan qaldırılıb.

Əməliyyatın özəlliyindən danışan Dr. Məhəmməd Davudovun sözlərinə görə, dilimin damarları birbaşa ümumi yuxu arteriyasına və daxili vidaci venaya anastomoz edilib: "Hazırda xəstənin ümumi vəziyyəti kafidir. Müalicəsini şöbəmizdə davam etdirir. Əməliyyatda zəhməti olan bütün həmkarlarıma, doktorant Şahin Məhəmmədov, rezidentlər Fərinaz İrannejad, Pərvin Həsənovaya, əməliyyat blokuna, anesteziologiya və reanimasiya briqadasına, xüsusi olaraq həmkarım doktor Kamil Axundova təşəkkürümü bildirirəm".

**ATU-nun mətbuat xidməti**

# İmmunitetin zəifləməsi, yüksək stress, digər xəstəliklər olarsa, vərəm xəstəlik mərhələsinə keçir

**◆"Vərəm bütün dünyada qlobal problem sayılır. Dünyada ən geniş yayılan xəstəliklərdən biri də vərəmdir. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bir neçə infeksiya ilə mübarizəni prioritet məqsəd kimi qarşıya məqsəd qoyub, onlardan biri də vərəm xəstəliyidir".**

**Bunu APA TV-nin "Öncə sağlıq" proqramında Tibb Universitetinin Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov deyib.**

R.Bayramov bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) statistik məlumatlarında vərəmlə yoluxma göstəricilərinin yüksək olduğu, hər il təxminən 10 milyonadək insanın vərəmlə xəstələndiyi, onlardan təxminən 3 milyonunun bu xəstəlikdən dünyasını dəyişdiyi göstərilir: "Yəni təxmini hesablayanda dünyada hər on saniyədə bir nəfər vərəmdən ölür. Bunlar çox acı reallıqlardır. Amma etiraf etmək lazımdır ki, vərəm mikrobakteriyalarının müxtəlif dəyişkənlikləri nəticəsində hazırda bütün dünyada vərəmə yoluxma, xəstələnmə, ölüm göstəriciləri əsas qlobal problemlərdən biridir.

Baxmayaraq ki, törədici də məlumdur, ona qarşı olan dərmanlar da var, amma müxtəlif dəyişkən formaların, o cümlədən dərmana davamlı formaların yaranması ilə bağlı bu problem qlobal olaraq qalır".

Mütəxəssis bildirib ki, son illərdə vərəmin epidemioloji göstəricilərində, yəni həm yoluxma, həm xəstələnmə, həm də ölüm sayında bütün dünyada, o cümlədən Azərbaycanda müsbətə doğru dinamika müşahidə olunur: "Amma dərmanlara davamlı formaların yaranması, artması araxıynlığın yaranmasına əsas vermir. Yəni dərmanlara rezistent formalı vərəmin rastgəlmə tezliyinin çoxalması vərəmlə mübarizə tədbirlərini daha da ciddi aparmağı və rezistentliyin yaranmasının səbəblərini vaxtında aşkarlayıb, bunları aradan qaldırmağı və rezirstent formaların düzgün müalicə metodları nəticəsində yeni birincili rezistent formaların əmələ gəlməsinin qarşısını almaq üçün atılan addımları aktual edir: "Vərəmin ən kiçik, ən məhdud forması ən azı 6-8 ay müalicə olunmalıdır. Xəstələrin bir qismi müəyyən müddət müalicədən sonra müsbət dinamika müşahidə olunduqda sanki özlərini sağalmış kimi qəbul edərək müalicədən imtina edirlər. Təbii ki, belə olandan sonra xəstələrdə müəyyən müddətdən sonra təkrari kəskinləşmə, fəsadlaşma yaranır. Belə hal bir neçə dəfə təkrar olunduqda dərmanlara davamlı formalar yaranmasına səbəb olur. Vərəmin çox rast gəlinməsinin və uzun illərdir ki, kökünün kəsilməməsinin səbəbi vərəm mikrobakteriyalarının düşdüyü mühitə uyğunlaşması və ətraf mühitin mənfi faktorlarına qarşı çox davamlı olmasıdır".

Mütəxəssis deyib ki, vərəm çöpləri ətraf mühitdə uzun müddət həyat qabiliyyətini saxlaya bilir. Müəyyən olunub ki, bu çöplər torpaqda günəş şüası düşməyən yerdə iki aya qədər, suda 5 ay və daha artıq, kitab vərəqlərində 3 ay və daha artıq öz həyat qabiliyyətini saxlaya bilir: "Onlar dezinfeksiyaedici məhlullar içərisində turşuya, qələviyə, məhlula davamlıdır. Yəni bu məhlullar da vərəm çöplərini öldürə bilmir. Yeganə öldürücü təsir göstərən isə xlorlu məhlullardır.

Xlorlu məhlulların təsiri nəticəsində vərəm çöpləri 3-5 saata məhv olur. Amma təbii vasitələrdən, o cümlədən ultrabənövşəyi şüaların, günəş şüalarının təsiri nəticəsində vərəm mikrobakteriyaları təxminən 3-5 dəqiqəyə ölür. Yəni vərəm çöplərinə ən böyük



öldürücü təsir göstərən günəş şüaları, düz düşən ultrabənövşəyi şüalardır".

R. Bayramov vurğulayıb ki, vərəmə yoluxmanın qarşısını almaq üçün aktiv vərəm olan xəstələrin erkən mərhələdə aşkarlanması, izolyasiya olunub, tam kompleks müalicə olunması ən vacib şərtlərdəndir: "Ona görə ki, infeksiyanın əsas mənbəyi, ətraf üçün ən epidemioloji təhlükəli olanı ağciyər vərəmi olan xəstələrdir. Onlar nə qədər erkən mərhələdə, daha tez aşkarlanıb, kompleks müalicəyə cəlb olunsalar, ətrafdakılar üçün epidemioloji təhlükə bir o qədər azalar".

Vərəmin profilaktika üçün 1 yaşından 14 yaşa qədər ildə bir dəfə tuberklin sınağından (mantu sınağı) istifadə edildiyini xatırladan həkim 12-14 yaşlardan yuxarı isə həm də fluoqrafik müayinələrdən istifadə edildiyini bildirib. Onun sözlərinə görə, bu müayinələrlə vərəmin erkən aşkarlanması mümkün olur, həm də profilaktikası aparılır: "Tuberklin sınağı ilk dəfə müsbət olarsa, bu, vərəm çöpləri ilə yoluxmanı göstərir. Bundan sonra minimal müayinələr nəticəsində aktiv vərəm aşkar olunmursa, bu, yalnız yoluxma göstəricisi kimi qeydə alınırsa, o zaman vərəm yaranmasın deyə həmin şəxslərə kompleks profilaktik tədbirlər aparılır.

Təbii ki, bu zaman vərəmin hansısa klinik forması aşkar oluna bilər. O halda isə kompleks vərəm əleyhinə müalicə kursuna başlanmalıdır. Bu halda kurs ən azı 6-8 ay davam etdirilməlidir".

Pulmonoloq onu da deyib ki, ÜST-ün məlumatlarına görə, dünya əhalisinin 1/3-dən çoxu vərəm çöpləri ilə yoluxub. Amma bu yoluxanlar arasında xəstələnənlər çox faiz təşkil edir: "Yoluxan şəxslərdə əgər xəstəliyin yaranması üçün zəmin yoxdursa, heç bir klinik əlamət müşahidə olunmur. Ona görə də belə şəxslərin həkimə müraciət etmələrinə hər hansı bir əsas olmur. Həmin insanların vərəm çöplərinə yoluxduğu yalnız kütləvi müayinələr zamanı aşkarlanır.

Vərəmlə xəstələnmə üçün şəraitin yetişməsi hər bir şəxsdə individual olaraq müxtəlif yaşda, müxtəlif dövrdə ola bilər. Vərəm infeksiyası ilə yoluxduqda ən tez xəstələnmə dövrü iki ay sonraya qədər baş verir. Əgər insan bu gün vərəm çöplərinə yoluxubsa, onun xəstələnməsi ən azı 2-8 həftədə, orta hesabla iki aydan sonra baş verə bilər".

Həkim qeyd edib ki, yoluxmuş şəxslərdə xəstəliyin yaranması üçün immunitetin aşağı düşməsi əsas faktorlardan biridir: "Təbii ki, immunitetin aşağı düşməsinə bir çox faktorlar - istər qidalanma, istər yaşayış şəraiti, istər stress, istərsə də yanaşı, immuniteti zəiflədən xəstəliklərin olması, immuniteti zəiflədən dərmanların hər hansı xəstəliyin müalicəsində istifadə edilməsi səbəb olur. Risk qrupuna yaşayış şəraiti, həyat tərzi normal olmayan, həbsxanada olanlar, yanaşı xəstəliklərdən əziyyət çəkən şəxslər daxildir. Bir mühitdə bir xəstənin olması həmin mühitdə olanların yoluxma ehtimalını yüksəldir. Xəstə hər dəfə asqıranda, öskürəndə ətrafda olan bütün şəxslərin yoluxmasına şərait yaradır. Təxmini hesablamalara görə, hər bir belə xəstə il ərzində təxminən 8-12 şəxsin vərəmə tutulmasına, 150-200 nəfərin isə vərəmlə yoluxmasına səbəb olur.

Yoluxan hər kəs vərəmlə xəstələnmir. Təbii ki, burada immunitetin aşağı düşməsi və irsi faktorların rolu var. Vərəmlə xəstələnmədə irsi faktorun rolunun böyük olması barədə çoxlu fikirlər var. Yəni yoluxmuş insanlarda irsi olaraq meyllik varsa, belə insanlar vərəm çöpləri ilə yoluxduqları halda daha çox xəstələnirlər.

Sözsüz ki, burada ailə təmasının da rolu danılmazdır. Amma aparılan elmi tədqiqat işlərinin, eləcə də praktiki olaraq rast gəlinən halların təhlili göstərir ki, irsi meylliliyin vərəmin inkişafında rolu böyükdür. Hər kəs vərəmlə xəstələnə bilər. Yaxşı bir deyim var, vərəm elə bir xəstəlikdir ki, əvvəlcədən heç kimə öz vizit kartını göndərmir.

Təbii ki, risk qrupları var. Amma bu heç də o demək deyil ki, vərəmə yalnız risk qrupuna daxil olan şəxslər tutulacaqlar, bu qrupda olmayanlar isə vərəmlə heç vaxt xəstələnməyəcəklər. Sadəcə, rastgəlmə tezliyində, nisbətdə fərq var. Hər kəs ömrünün istənilən vaxtında vərəmlə xəstələnə bilər.

"Hər zaman vərəmlə kimlər xəstələnə bilər" sualına cavab olaraq normal həyat tərzi keçirməyənləri, alkoqol, narkotik, siqaret istifadəçilərini, həbsxanada olanları, yaxşı qidalanmayanları göz önünə gətiririk. Düzdür, bu tip insanlarda vərəmə daha çox rast gəlinir. Amma bu zərərli vərdişlərdən çox uzaq olan, eyni zamanda maddi baxımdan çox yaxşı təmin olunan, yaşayış şəraiti çox yaxşı olan insanlar da vərəmlə xəstələnə bilər. Praktikada da belə hallara rast gəlirik".

R.Bayramov vərəmin tam sağala bilən xəstəlik olduğunu da vurğulayıb. Onun sözlərinə görə, bütün xəstəliklər kimi vərəm də nə qədər erkən aşkar olunarsa, konservativ müalicə nəticəsində tam sağala bilir: "Erkən diaqnostika, düzgün təyin olunan müalicə və xəstənin bütün müalicə rejiminə düzgün əməl etməsi nəticəsində tam sağalma mümkündür və praktikada belə hallar çoxdur".

Tam sağalmış xəstələrdə xəstəliyin yenidən residiv verməsinin də mümkün olduğunu deyən R. Bayramov bunun sağalmadan 2-3 il sonra baş verdiyini açıqlayıb.

Onun sözlərinə görə, yaz-payız ayları vərəmin residivləşməsi üçün uyğun dövrdür.

Mütəxəssis onu da deyib ki, vərəmlə xəstələnmiş, sağalmış qadınlar hamiləlik dönəmində mütləq müayinə olunmalıdırlar.

R.Bayramov bildirib ki, orqanizmdə elə bir orqan, toxuma, sistem yoxdur ki, orada vərəmə rast gəlinməsin. Onun sözlərinə görə, ağciyər vərəmindən sonra ən çox sümük toxuması vərəminə rast gəlinir.

# Universitetimizin dosenti Türkiyədə ezamiyyətdə olub

**Azərbaycan Tibb Universitetinin patoloji fiziologiya kafedrasının dosenti Gülnarə İbrahimova bu ilin mayında Türkiyədə 20 günlük ezamiyyətdə olub. O, Konya bölgəsindəki Selcuk Universitetinin tibb fakültəsinin patologiya kafedrasında (patoloji anabilim dalı) öz bilik və bacarıqlarını artırıb.**

Səfər zamanı G.İbrahimova tibb fakültəsinin dekanı ilə görüşüb. ATU-nun nümayəndəsi fakültənin dosenti Dr.Pınar Karabağlı ilə birlikdə çalışıb, ondan patologiya kafedrasında tələbələrlə iş, dərs keçmək qaydalarını öyrənib.

G.İbrahimovanın sözlərinə görə, Azərbaycan Tibb Universitetində tədris sistemi Selçuk Universitetinin tibb fakültəsində mövcud qaydalardan çox fərqlənir: "Mən universitetin fiziologiya, fiziopatologiya və patologiya kafedralarında III kurs tələbələrinin mühazirələrində və praktik məşğələlərində iştirak etdim. Ezamiyyət müddətində dosent Dr.Serdar Altınayın, Dr.Serdar Gergerlioglunun, Dr. Pınar Karabaglının, Dr.Zeliha Ehsin Çelikin böyrəyin fiziopatologiyasına və patologiyasına həsr olunmuş mühazirələrinə qatıldım. Patologiya kafedrasında həm xəstələr, həm də tələbələrlə işləyərək öz işimdə, ölkəmizdə tətbiq edə biləcəyimiz məsələləri araşdırmağa çalışdım".

Türkiyə səfəri zamanı ATU nümayəndəsi Gülnarə İbrahimova həmçinin Çukurova Universiteti tibb fakültəsinin patologiya kafedrasında Dr. Derya Gümürdülünün KHDAK (kiçik hüceyrəli dışı ağciyər xərçəngi) haqqında və xəstəliyin xalkori preparatı ilə müalicəsi mövzusunda toplantıda iştirak edib. Ezamiyyətin sonunda G.İbrahimova patologiya kafed-



rasının rəhbəri prof. Dr. Nevzar Serdar Uğraş tərəfindən müvafiq sənəd alıb.

**ATU-nun mətbuat xidməti**

**“Məzun Günü” təhsil müəssisələrində artıq bir ənənəyə çevrilən vida günü, sabaha çağırış, məsuliyyət andıdır. Xüsusən də ali və orta ixtisas məktəblərinin məzunları üçün. Axı qarşıda onları müstəqil həyatın qayğılı günləri gözləyir.**

# Heç vaxt unudulmayan




Hər tədris ilinin sonunda minlərlə məzun neçə il ayaq döydüyü məktəbindən, doğma kollektivindən ayrılır...

Öz ənənələri olan, neçə illərdən bəri formalaşmış imicini, nüfuzunu qoruyub saxlayan Azərbaycan Tibb Universitetinin bu bayram tədbirinə toplaşanların çöhrəsində sevinclə birgə bir gərginlik də duyulurdu. Məzunlar daha qayğılı idilər. O məzunlar ki, bu illər ərzində qayğılarını çəkən, elmin əsaslarını zərrə-zərrə öyrədən, insanların sağlamlığının qorunması naminə ömrünü şam kimi əridən müəllimlərindən ayrılır, tələbəlik illərini arxada qoyub onu kövrək, həzin xatirəyə çevirirlər.

Bu münasibətlə iyunun 29-da Azərbaycan Tibb Universitetinin növbəti “Məzun-2016 ” günü keçirildi.













Hər il ənənəvi olaraq Azərbaycan Tibb Universitetinin şəhərciyində keçirilən “Məzun Günü” bu dəfə paytaxtımızda öz möhtəşəmliyi və gözəlliyi ilə seçilən “Gülüstan” sarayında təntənəli şəkildə qeyd olundu. Yüksək səviyyədə təşkil olunmuş toplantıda Səhiyyə naziri, professor Oqtay Şirəliyev, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, millət vəkili, akademik Əhliman Əmiraslanov, ATU-nun rektoru, professor Gəray Gəraybəyli, universitet rəhbərliyi və professor- müəllim heyəti, həmçinin tanınmış ziyalılar, səhiyyə işçiləri, valideynlər və əcnəbi qonaqlar iştirak edirdilər.

Tədbiri giriş nitqi ilə açan Səhiyyə naziri Oqtay Şirəliyev “Məzun Günü”nün bir neçə mühüm hadisəni özündə əks etdirdiyini qeyd edib. Nazir bildirib ki, ilk növbədə ən sevimli və yadda qalan tələbəlik illərini bitirir və özünüzün seçdiyiniz sevimli sənətlə məşğul olmaq hüququnu qazanırsınız: “Hər kəs üçün seçdiyi sənət, peşə maraqlıdır. Amma həkim diplomunu almaq daha məsuliyyətlidir. Çünki insanlar ən qiymətli nemətlərini – sağlamlıqlarını, çox vaxt həyatlarını həkimlərə etibar edirlər”.

O.Şirəliyev Azərbaycanda səhiyyə problemlərinin həllinə həmişə böyük diqqət olduğunu və cənab Prezident İlham Əliyevin insanların sağlamlığının qorunmasını ölkəmizin ən vacib prioritet məsələsi hesab etdiyini qeyd edib: “Biz qısa zaman ərzində səhiyyəmizdəki inkişafın və əldə etdiyi nailiyyətlərin birgə şahidiyik. Yüzlərlə xəstəxana, tibb müəssisəsi, o cümlədən universitetin tibb korpusları inşa edilib, gözəl avadanlıq, unikal aparatlar, cihazlarla təmin olunaraq istifadəyə verilibdir. O avadanlıqlarla ki, onların imkanları bizlərə bir vaxt möcüzə kimi görünürdü. Əlbəttə, bu aparatlarda və cihazlarda işləməyə savadlı, bilikli mütəxəssislər lazımdır. Vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın yüzlərlə gənci Sovet İttifaqının ən mötəbər ali təhsil müəssisələrində təhsil alır, görkəmli alimlərin rəhbərliyi altında elmi-tədqiqat işləri aparırdı. Bu gün də o ənənələr cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Onun təşəbbüsü ilə yüzlərlə gənc Avropanın tanınmış təhsil mərkəzlərində təhsil alır. Bu gün bizim həkimlər beynəlxalq simpoziumlarda, konqres və tədbirlərdə iştirak edir, elmi məruzələrlə çıxış edirlər. Bu, əlbəttə, sevindirici haldır. Onlar Azərbaycan səhiyyəsinə şərəflə xidmət edir, insanların sağlamlığının keşiyində vicdanla dururlar”.

Sözünə davam edən nazir səhiyyəmizin inkişafında müstəsna xidmətləri olan akademiklər Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, Zərifə xanım Əliyeva, Mirməmməd Cavadzadə və başqalarını misal çəkərək onların adlarının tibb tariximizə qızıl hərflərlə yazıldığını və xalqımız tərəfindən heç vaxt unudulmayacaqlarını da vurğuladı. Bu günkü tanınmış alimlərdən Böyükkişi Ağayev, Əhliman Əmiraslanov, Cəmil Əliyev, Adilə xanım Namazovanın bilik və təcrübələrinin gənclər üçün bir örnək olduğunu söylədi. Nazir çıxışının sonunda məzunlara özünün dəyərli tövsiyələrini də verdi:” Bu gün siz məzunlar böyük bir həkim ailəsinə qoşulursunuz. Seçdiyiniz sənət çətin və ağır



# "Məzun Günü"

olsa da, xeyirxah və şərəflidir. Bu sənətdə sizin ilk addımlarınız uğurlu olsun. Təbrik edirəm!"

**"Universitet professor Gəray Gəraybəylinin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək"**

Toplantıda çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov "Məzun Günü"nün keçirilməsinin artıq bir ənənəyə çevrildiyini bildirdi: "Tibb Universiteti bizlərin hamımızın universitetidir. Universitetin bu günkü səviyyəyə gəlib çıxmasında, belə yüksək ixtisaslı mütəxəssis hazırlığında əldə etdiyi uğurların təməli 86 il bundan öncə qoyulub. Biz bu universitetin formalaşmasında, qurulmasında xidməti olan insanları unutmamalıyıq". Ə.Əmiraslanov ATU-nun inkişafında, müasir klinikaların yaradılmasında ümummilli lider Heydər Əliyevin diqqət və qayğısını bir daha xatırladıb. Universitetin indən sonra da böyük uğurlara imza atacağını dilə gətirib. Bunu möhtərəm Prezident cənab İlham Əliyevin, ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın, Səhiyyə naziri Oqtay Şirəliyevin xüsusi diqqət və qayğısı ilə izah edib. O, həmçinin universitetin yetirməsi, professor Gəray Gəraybəylinin rəhbərliyi ilə gələcəkdə daha böyük nailiyyətlərə imza atılacağını vurğulayıb: "Xüsusilə onu qeyd etmək istəyirəm ki, universitetimizə rəhbərlik edən professor Gəray Gəraybəyli bu universitetin yetirməsidir. Universiteti bitirdikdən sonra burada fəaliyyətə başlayıb, bütün pillələri keçərək rektor vəzifəsinə yüksəlibdir. Mənə elə gəlir ki, bizim hər birimiz, professor-müəllim heyəti bu gün rektor Gəray Gəraybəyliyə kömək etməliyik ki, hamımıza doğma olan Tibb Universiteti daha yüksək zirvələri fəth etsin".








**"Universitetimizin adını daim yüksəkliklərə qaldırmağınızı arzu edirəm"**

Universitetin rektoru, professor Gəray Gəraybəyli də bu əlamətdar gün münasibətilə məzunları və onların valideynlərini təbrik edib. Rektor universitetin professor-müəllim heyəti adından gələcəyin həkimlərinə tutduqları bu müqəddəs peşə yolunda uğurlar arzulayıb: "Əziz məzunlar! Burada sizin ünvanınıza deyilən təbriklərə mən də qoşuluram. Sizi bir daha universitetimizi bitirərək böyük həkimlər ailəsinə daxil olmanız münasibəti ilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, gələcək həyatınızda daimi öz həkimlik fəaliyyətinizdən məmnun qalıb, xalqımızın sağlamlığının qorunmasında nailiyyətlər qazanıb, dogma universitetimizin adını daim yüksəkliklərə qaldırasınız. Bir daha sizi təbrik edirəm!"

Sonra G.Gəraybəyli universiteti müvəffəqiyyətlə başa vuran bir qrup əlaçı məzuna fərqlənmə diplomu təqdim etdi.

Professor-müəllim heyəti adından çıxış edən I cərrahi xəstəliklər kafedrasının müdiri, akademik Böyükkişi Ağayev də məzunları təbrik edərək, onlara gələcək həkimlik peşəsində naliyyətlər arzuladı.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra məzunlar hərbi tibb fakültəsinin məzunu Sərraf Sadıqlının oxuduğu Həkim Andını birlikdə təkrar etdərək, xalqımızın sağlamlığının keşiyində ləyaqətlə duracaqlarına söz verdilər.



**"Müasir təhsil sistemində müsbət mənada böyük irəliləyiş müşahidə olunur"**

ATU-nun keçmiş məzunu olmuş Firudin Nəcəfov valideynlər adından məzunları təbrik edərək onun təhsil aldığı dövrlə indiki dövr arasında müsbət mənada böyük fərq olduğunu diqqətə çatdırdı. Təhsildə xeyli nailiyyət və uğurların nəzərə çarpdığını diqqətə çatdıran F.Nəcəfov buna görə ölkə başçısı İlham Əliyevə, Səhiyyə naziri Oqtay Şirəliyevə, tələbələrə yaradılan şəraitə görə rektor Gəray Gəraybəyliyə dərin minnətdarlığını bildirdi.

Sonra ATU-nun məzunları sırasında olan Prezident təqaüdçüsü Gülşən Babayeva estafeti I kurs tələbəsi Nərmin Alıyevaya verərək, ona həkim libasını və səhiyyəyə aid rəmzi atributları təqdim edib.

Çıxışlar bitdikdən sonra "Məzun Günü" bədii hissəyə keçid aldı. Öz bənzərsiz çıxışları ilə hər kəsin rəğbətini və dərin sevgisini qazanan ATU-nun "Çinar" rəqs qrupunun nömrələri izlənildikdən sonra meydan məzunlara verildi.

"Məzun Günü" simfonik orkestrin və tanınmış sənət adamlarının çıxışı ilə davam etdi. Respublikamızın incəsənət ustalarının ifasında bir-birindən rəngarəng mahnılar dinlənildi. Eyni zamanda, ATU tələbələri də bir-birindən maraqlı musiqi nömrələri ilə çıxış etdilər. Hərbi tibb fakültənin nümayəndələri vətənpərvərlik ruhunda mahnılar ifa etdilər.

Məzunların üç dildə-Azərbaycan, ingilis və rus dillərində hazırladığı slayd-şou mərasim iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Bəli, beləliklə heç vaxt unudulmayan, daim dönə-dönə xatırlanacaq daha bir növbəti "Məzun Günü" zamanın yaddaş kitabına yazıldı, könüllərin ruhuna çöküb, şirin bir nəğmə kimi dodaqlarda qaldı. Bir mahnının sözlərində deyildiyi kimi...

*Sızlar yada düşəndə ürəyimin telləri,*
*O mehriban, o əziz tələbəlik illəri.*

**Mənsur ƏLƏKBƏRLİ,**
**Qabil ABDULLAYEV**
**Fotolar Cənnətalı Çingizindir**

# «QIZIL GÖRÜŞ»

## (ATU-nun 1966-cı il məzunlarının görüşü)

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin bütün fakültələrini 1966-cı ildə bitirmiş məzunların görüşü keçirilmişdir. Azərbaycanın paytaxtı Bakı şəhərindən, onun müxtəlif rayonlarından, həmçinin uzaq Almaniyadan, İsraildən, Gürcüstandan gəlmiş qəlbləri tələbə ruhlu, məzun həvəsli, görkəmləri-müdriklik çalarlı, ağsaqqallı-ağbirçəkli "Gənclər" bu görüşü obrazlı şəkildə rəmzi məna daşıyan "Qızıl görüş" adlandırdılar. Çünki bu, onların "Alma mater" adlandırdıqları, müqəddəs elm və təhsil ocağı sandıqları Azərbaycan Tibb Universitetini bitirmələrinin 50 illik yubiley görüşü idi.**

Tədbirin əsas təşkilatçılarından olan Azərbaycan Tibb Universitetinin istehsalat təcrübəsi üzrə dekanı, III cərrahi xəstəliklər kafedrasının dosenti Şəfa Əliyevin və ATU-nun stomatologiya fakültəsinin dekanı, ortopedik stomatologiya kafedrasının professoru Zöhrab Qarayevin internetdə yaydıqları elana əsasən, bu dəfəki tədbirə 28 nəfər təşrif buyurmuşdu. Onların sıralarında müalicə-profilaktika, pediatriya, stomatologiya, tibbi-profilaktika və əczaçılıq fakültələrini bitirmiş məzunlar var idi.

Çıxış edənlərdən hər biri Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə tədbirin iştirakçılarına göndərdiyi səmimi təbriklərinə və razılıq ifadələrinə görə təşəkkür etdilər.

Görüş iştirakçılarını maraqlandıran ən əsas mövzulardan biri tələbəlik illərinə qayıtmaqdan, o illəri xatirələrlə yada salmaqdan ibarət oldu. Onlar bu xatirələrdən ayrıla bilmir, onun gözəlliklərini, özəlliklərini, həzinlik və səmimiliklərini böyük məhəbbət hissilə yad edirdilər. Fərdi olaraq çıxışlarda Azərbaycan Respublikasının indiki yüksəlişindən, ölkə Prezidenti cənab İlham Əliyevin gördüyü cahanşümul işlərdən, 1966-cı il Bakısı ilə 2016-cı il Bakısının dinamik müqayisəsindən danışdılar, həmçinin erməni vandalları tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının gec-tez azad ediləcəyindən də geniş söhbət açıldılar.

Tədbir iştirakçıları təbii qanunauyğunluqlar, fəlsəfi meyarlar, Allah rizası ilə sıraları "seyrəldənlərin" – ülvi duyğularla əbədiyyətə qovuşan məzunların xatirəsini sükutla yad etdilər, Allahdan onlara rəhmət dilədilər, onlar haqqında ürəklərdə iz buraxan, könüllərdə qərar tutan işıqlı xatirələr söylədilər.

Sonra nəzərə çatdırıldı ki, bu gün burada ATU-nun stomatologiya fakültəsinin dekanı, ortopedik stomatologiya kafedrasının professoru Zöhrab Qarayev, ATU-nun istehsalat təcrübəsi üzrə dekanı, III cərrahi xəstəliklər kafedrasının dosenti, əməkdar müəllim Şəfa Əliyev, ATU-nun Elmi-Tədqiqat Mərkəzinin şöbə müdiri, professor Ramiz Axundov, ATU-nun ağciyər xəstəlikləri kafedrasında dosent vəzifəsini yerinə yetirmiş, postsovet dövründə isə 20 ildən artıq bir müddətdə Türkiyədə universitet müəllimi vəzifəsində çalışan Suliddin Həmidov, ATU-nun Ailə və sağlamlıq kafedrasının müdiri, dosent Mustafa Salihov, Milli Onkologiya Mərkəzinin professoru Əflatun Kərimov, ET Tibbi Bərpa İnstitutunun professoru, əməkdar həkim Fərxəndə Balakişiyeva, Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinin müəllimi Vəli Əliyev, Bakıda aptek müdiri vəzifəsində çalışan Əfqan Cəfərov, stomatoloqlardan – Namiq Qasımov (Gəncə), Tarix Şərəfxanov (İmişli), Eldar İsmayılov (Laçın-Sumqayıt), Həsənağa Hüseynov (Cəlilabad), tibbi-profilaktika fakültəsi məzunlarından doktor Qalamirzə (Beyləqan), əczaçılardan-Zakir Quliyev (Bakı), Cəfail Şəkərov (Şəmkir), Məhəmməd Məhəmmədov (Yardımlı), Akif Abbasquliyev (Bakı), bu sətirlərin müəllifi Mübariz Allahverdiyev, həmçinin digər məzunlar çıxışlar edib, səmimi ürək sözlərini söylədilər. Suliddin Həmidovun insanları imana-dinə səsləyən müdrik çıxışından, Vəli Əliyev eyni müdrikliklə onun məfkurə və meyarlarına dəstək olan, eləcə də 11 ayın sultanı müqəddəs Ramazan ayının özəlliklərinə həsr olunmuş nitqindən sonra, Suliddin müəllim özünün yenicə çap etdirdiyi şeirlər kitabını məzun dostlarına hədiyyə etdi.

Xatirələrdə qeyd edildi ki, onların bu ali tibb təhsili ocağına ilk dəfə qədəm qoyduqları vaxtdan 55 ilə yaxın bir müddət keçir.

1960-1961 və 1961-1962-ci tədris illərinin tələbə qəbulunda Azərbaycan Dövlət Tibb İnstitutuna əməkdar elm xadimi, professor Bahadur Eyvazovun, 1964-cü ildən etibarən və buraxılış ilində isə professor Xamis Həsənovun rəhbərlik etdikləri yada salındı və onların da əziz xatirələri ehtiramla yad edildi.

İndiki Azərbaycan Tibb Universitetini 1966-cı ildə bitirən məzunların "Buraxılış Gecəsi"nin keçirilməsində o vaxtlar ATU-nun Tələbə Həmkarlar Təşkilatının sədri vəzifəsində çalışan, tələbəlik illərindən müstəsna təşkilatçılıq bacarığı nümayiş etdirən və hazırda insan anatomiyası kafedrasının müdiri vəzifəsində çalışan, Rusiya Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor fəxri adlarına və elmi dərəcələrinə layiq görülən, tələbəlik illərində bizimlə bir yataqxanada qalıb hamının qayğısını çəkən Vaqif Şadlinskinin böyük xidmətləri olmuşdu. Məhz tələbələrin lideri Vaqif Şadlinskinin təşkilatçılıq bacarığı sayəsində ATU-nun 1966-cı il buraxılışı Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının yay salonunda keçirilmiş, o dövrün populyar estrada müğənnisi, ATU-nun məzunu Flora Kərimova konsert proqramı ilə çıxışa dəvət olunmuşdu. Özü tələbə fəallarından olmaqla, o illərin bütün fakültə və kurslarında təhsil alan tələbələrin hər birini yaxından tanıyan Vaqif Şadlinskinin o dövrün qarşıya çıxan bütün çətinliklərini məharətlə dəf edərək, 1966-cı il buraxılışını yüksək səviyyədə təşkil etməsi indi də tələbə dostlarının yaddaşındadır və onlar onun tələbələrə cari həyat şəraitində də göstərdiyi xeyirxah münasibətlərini bütün incəlikləri və gerçəklikləri ilə xatırladılar, tələbə dostları Vaqif müəllimə öz səmimi salamlarını, xoş ürək sözlərini yetirdilər.

Elə bu məqamda da ATU-nun 1966-cı il "Buraxılış Gecəsi"ndə tələbələr adından çıxış etmək tədris işləri üzrə prorektor Maqsud Əlizadənin seçimi ilə iki tələbəyə həvalə edildiyi qeyd olundu. Onlardan birinin hazırda ATU-nun nevrologiya və tibbi-genetika kafedrasının professoru vəzifəsində çalışan Zakir Əliyevin, digərinin isə bu sətirlərin müəllifinin olması görüş iştirakçıları tərəfindən xoş xatirə kimi yada salındı, Filarmoniyanın izdihmlı yay salonu bir daha məmnunluqla xatırlandı.

Yubiley iştirakçıları təhsil illərində birbaşa mühazirələrini dinlədikləri, təcrübə məşğələlərində iştirak etdikləri görkəmli elm xadimləri – akademiklərdən Mustafa bəy Topçubaşovun, Cahangir Abdullayevin, Zülfüqar Məmmədovun, Cəlil Hüseynovun, Elmlər Akademiyasının müxbir üzvləri – professorlardan Fuad Əfəndiyevin, Ümnisə Musabəylinin, Aqil Əliyevin, əməkdar elm xadimləri – professorlardan Kamil Balakişiyevin, Böyükbəy Mahmudbəyovun, Məmmədəmin Əfəndiyevin, Adil Nəcəfovun, Gülbala Qurbanovun, Savalan Ocaqverdizadənin, Məhərrəm Mustafayevin, Tağı Paşayevin, Qüdrət Səlimxanovun, Tağı Tağızadənin, İbrahim Topçubaşovun, M.Əbiyevin, Gürşad Hüseynovun, Zəhra Salayevanın, Törə Qədirovanın, Saleh Salixovun, Əhməd Abbasquliyevin, Gülağa Hacıyevin, Qurban Bayramovun, Aslan Tahirovun, Həsən İsazadənin, Faiq Əfəndiyevin, İsrafil Dəmirovun, Məhbubə Mahmudbəyovanın, Turan Mehdiyevanın, Dursun Hüseynovun, Əliağa Əhmədovun, Nəriman Əliyevin, Əbülfəz Məmmədovun, İsmayıl Səmədovun, Yadigar müəllimin, o dövrdə ATU-nun tədris işləri üzrə prorektoru vəzifəsində çalışan Maqsud Əlizadənin, eləcə də dosentlərdən Ləzifə Əliyevanın, Səlim Həsənovun, Bikəxanım Əlizadənin, fizika fənnini tədris edən Teymur müəllimin, Həsən Xudaverdiyevin, tarixçi Həsən müəllimin, siyasi-iqtisadçı Polad müəllimin, Qulam Tarıverdiyevin, Əhməd Həsənzadənin, mikrobioloq Validə xanımın və digərlərinin də xatirələrini ehtiramla yad etdilər.



Ümumiyyətlə, statistik məlumatlara görə 1966-cı ildə ATU-nu 489 məzun bitirmişdir. Onlardan 340 nəfəri azərbaycanlı, 149 nəfəri isə başqa xalqların nümayəndələri olmuşdur. O dövrdə yalnız ümumi bir müalicə-profilaktika fakültəsi, pediatriya, sanitariya-gigiyena, stomatologiya və əczaçılıq fakültələri fəaliyyət göstərirdi və 1966-cı ildə ATU-nun müalicə-profilaktika fakültəsini 192 nəfər (52 nəfəri başqa xalqların nümayəndələri), pediatriya fakültəsini 89 nəfər (32 nəfəri başqa xalqların nümayəndələri), stomatologiya fakültəsini 76 nəfər (10 nəfəri Türkmənistan Respublikasının, 15 nəfəri isə digər xalqların nümayəndələri), sanitariya - gigiyena fakültəsini 53 nəfər (8 nəfəri Türkmənistan Respublikasının, 16 nəfəri isə digər xalqların nümayəndələri), əczaçılıq fakültəsini 79 nəfər (48 nəfəri əyani, 31 nəfəri qiyabi şöbə – onlardan da 8 nəfəri Türkmənistan Respublikasının, 15 nəfəri isə başqa xalqların nümayəndələri) bitirmişdir.

Sonra 1965-1966-cı tədris ilinin buraxılış dövlət imtahanları, imtahan komissiyalarının sədrləri və üzvləri, ATİ-ni fərqlənmə diplomu ilə bitirənlər xatırlandı.

Sonda məzunların bir qrupu xatirə şəkli çəkdirdilər və 5 ildən sonra məzunluğun 55 illik yubileyində yenidən görüşməyi biri-birilərinə arzu edərək ayrıldılar. Ayrıldılar - yenidən görüşmək üçün. Ayrıldılar – İnşallah növbəti görüşlərə, o cümlədən "Brilyant Görüş"ə hazırlıq üçün...

**Mübariz ALLAHVERDİYEV,**
*ATU-nun insan anatomiyası kafedrasının professoru, əməkdar müəllim, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Fiziki sağlamlıq və vətənpərvərlik gənclərimizin ən böyük amalıdır

**Gənclik hər bir millətin inkişafının təməl daşıdır. Məhz bu səbəbdən millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir, onların cəmiyyətdə təsdiq olunması üçün şərait yaradır.**



Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşıb və ona həyati əhəmiyyətli məsələ kimi baxıb. Bu, bir həqiqətdir ki, fiziki sağlamlıq insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizəyə inam hissini gücləndirir.

Ölkəmizdə uşaq və gənclərin fiziki sağlamlığına xüsusi diqqət göstərilir. Sözsüz ki, fiziki sağlamlıq mənəviyyatın da inkişafına müsbət təsir edir. Fiziki sağlamlığın əsas amillərindən biri idmandır. İdmanla məşğul olan uşaq və ya gənc dözümlü, iradəli olur. Azərbaycan dövləti gənc nəslin bu cür keyfiyyətlərə malik olmasında maraqlıdır. Ölkəmizdə uşaq və gənclərə yaradılan şərait, inşa edilən müasir idman qurğuları məhz gələcəyimiz olan gənc nəslin xoş sabahı üçündür. İstər Bakıda, istərsə də bölgələrdə fəaliyyət göstərən idman ocaqları ən müasir idman avadanlıqları ilə təchiz edilib.

Ölkəmizdə, uşaq, yeniyetmə və gənclərin fiziki inkişafının təminatı məhz idmanla əlaqəlidir. Xalqımızın gələcəyi olan gənc nəslin fiziki sağlamlığı idmana göstərilən yüksək səviyyəli qayğı və diqqət sayəsində mümkün olmuşdur. Dəfələrlə qeyd etdiyimiz kimi, respublikamızda uşaq və gənclərin fiziki sağlamlığının təmin edilməsi üçün lazımi şərait mövcuddur. İndi Azərbaycanın hər bir bölgəsində müasir tələblərə cavab verən idman qurğuları fəaliyyət göstərir. Uşaqların idmana cəlb olunması kütləvi xarakter alıb. Minlərlə yeniyetmə və gənc hər gün müxtəlif idman növləri ilə məşğul olmaq üçün klublara və idman bölmələrinə axışır. Sevindirici haldır ki, respublikamızın bütün bölgələrində uşaqların fiziki inkişafının təmin edilməsi üçün şərat yaradılır. Son illər bölgələrdə idman infrastrukturunun formalaşması uşaq, yeniyetmə və gənclərin sağlamlığının qorunmasına təkan verən amildir.

Vətən dünyaya göz açdığımız doğma el-oba sayılır. Hər kəs öz sevgisi, məhəbbəti, varlığı ilə vətənini öz şəxsiyyətində yaşatmalıdır.

Vətənpərvərlik elə bir hissdir ki, o, özü üçün deyil, eli, obası, xalqı üçün yaşamağı, insandan tələb edir. Vətənpərvər insan təkcə soyuq səngərlərdə, döyüş bölgələrində xidmət edən insan deyil. Hər bir kəs öz əməyi ilə vətənpərvər ola bilər. Bənna külüngü, diplomat siyasəti, alim elmi, yazıçı, şair qələmi, tarixçi üzə çıxartdığı həqiqətləri, analar böyütdükləri övladları, oğullarımız mərdliyi, qeyrəti, şagirdlərimiz təhsili ilə əsl vətəndaş ola bilərlər. Azərbaycanın tarixi keçmişinə bağlı, hər şəraitdə onun təəssübünü çəkməyi bacaran hər kəs əsl vətənpərvərdir.

Danılmaz faktdır ki, insanda vətənpərvərlik hissi qəhrəmanlığın əsasını qoyan amillə bağlıdır. Azərbaycan şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Tariximiz həmişə sübut edib ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz vətənini daima qorumağa hazır olan mətin gənclər yetişdirib. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında canlarını düşmən gülləsinə sipər edən qəhrəman övladlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi-vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Müstəqil dövlətdə yaşayan hər bir gənc, ilk növbədə, bu dövlətin müstəqilliyinin təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab etməlidirlər. Gənclər bilməli və dərk etməlidir ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən böyük hadisədir və bu vətənpərvərlik hissinin aşılanması vasitəsilə təlqin edilə bilər. Qarabağ problemi hamımız üçün ən aktual mövzudur. Ölkəmiz müharibə şəraitində olduğu üçün cəmiyyətimizdə vətənpərvərlik təbliğatının bir an belə dayandırılmaması çox vacibdir. Bunun üçün təhsil müəssisələrində, mətbuatda, cəmiyyət arasında hərbi-vətənpərvərlik, ordu, şəhidlər, milli qəhrəmanlar, düşmənlərin mənfur niyyətləri ilə bağlı söhbətlər aparılmalı, televiziya və radiolarda verilişlər nümayiş etdirilməlidir. Vətənpərvərlik həm də emosional hissdir. Hər bir insan bütün şəxsi maraqlarını vətən yolunda qurban verməyə, vətəninin və xalqının marağını daha uca tutmağa hazır olmalıdır.

Bu səbəbdən Azərbaycan torpağı adi torpaq parçası deyil, bizi yaşadan və yaşamağa sövq edən müqəddəs torpaqdır. Həmişə olduğu kimi, bu gün də xalqımızın mərd oğulları vətənin azadlığı uğrunda düşmənə qarşı igidliklə vuruşmuş, ana torpağı qorumağa çalışmış, nəticədə isə yenidən öz torpagının sahibi olmuşdur. Əlbəttə, onların hər biri öz övladlıq borcunu yerinə yetirib. Axı müqəddəs ana torpağını vətən edən onun vətəndaşıdır. Hər bir vətəndaş öz yurdunu qorumağa, çiçəkləndirməyə borcludur. Xalqımızın neçə-neçə qeyrətli oğulları bu şərəfli vəzifənin öhdəsindən inanılmaz qəhrəmanlıqla gəlib. Bəziləri sağlamlığını itirmiş, bəziləri itkin düşmüş, bəziləri isə şəhidlik zirvəsinə yüksəlmişlər. Onların hər biri vətən uğrunda canlarını qurban verərək əbədiyətə qovuşublar. Doğma torpaq uğrunda mübarizəyə qalxan minlərlə igid oğullarımız haqqında neçə-neçə əsərlər, kitablar yazılıb, dastanlar qoşulub. Məhz bunun nəticəsidir ki, torpaq uğrunda həlak olan şəhidlərimiz xalqımızın qəlbində daim yaşayır. Lakin onların ruhları hələ də narahatdır. Axı, onların canlarından keçərək bizə əmanət etdikləri vətən torpağı hələ də düşmən əsarəti altındadır.

**Azər BAĞIROV,**
*ATU-nun idman klububun baş müəllimi,*
*Əməkdar məşqçi,*
*Qabaqcıl təhsil işçisi*

**(Olimpnews.az saytından ixtisarla.)**

# Əsgərov İdris Teymur oğlu

**Tibbi biologiya və genetika kafedrasına ağır itki üz vermişdir. Bu günlərdə kafedranın baş müəllimi, biologiya elmlər namizədi İdris Teymur oğlu Əsgərov dünyasını dəyişmişdir.**



İdris Əsgərov 1941-ci il avqustun 14-də Tovuz rayonunun Sarıtala kəndində anadan olmuşdur. O, orta məktəbi bitirdikdən sonra 1960-1963-cü illərdə ordu sıralarında xidmət etmişdir. 1964-1969-cu illərdə BDU-nun biologiya fakültəsində təhsil almışdır. 1969-1971-ci illərdə təyinatla istehsalata göndərilərək Bakı Şərab Zavodunun laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. 1971-ci ildə AMEA-nın Botanika İnstitutunda işə başlamış və 1978-ci ildə dissertasiya müdafiə edərək biologiya elmlər namizədi alimlik dərəcəsini almışdır. İ.Əsgərov sonralar Azərbaycan Dillər Universitetinin uşaqların fiziologiyası və psixologiyası kafedrasında müəllimlik etmişdir. 1991-ci ildə Azərbaycan Tibb Universitetində tibbi biologiya və genetika kafedrasında müəllim, 1998-ci ildən ömrünün son günlərinə qədər isə baş müəllim vəzifəsində işləmişdir.

İdris müəllim universitetin professor-müəllim heyətinin və eləcə də tələbə kontingentinin dərin hörmətini qaznmışdır. O, pedaqoji fəaliyyətilə yanaşı, elmi-tədqiqat işləri ilə də ciddi məşğul idi, teztez biologiya elmləri üzrə fəlsəfə doktorluğu dissertasiyasına rəsmi opponent olurdu. İdris müəllim kafedrada işlədiyi müddətdə universitetin ictimai işlərində fəal iştirak edirdi.

Gözəl insan, istedadlı pedaqoq və dəyərli alim olan İdris müəllim doğma kollektivin və onu tanıyanların qəlibində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!**

*Tibbi biologiya və genetika kafedrasının əməkdaşları*

# Planşetlərdən istifadə edilməsi uşaqlarda əzələ və sümüklərin inkişafını pozur

**◆ Müasir uşaqlar planşet və digər sensorlu qurğulara olduqca çox vaxt sərf edirlər. Avstraliyanın Körtin Universiteti alimlərinin fikrincə, bu, gənc nəsildə əzələ və sümükləri lazımi qaydada inkişaf etməyə qoymur.**



AZƏRTAC "healthvesti.com" saytına istinadla xəbər verir ki, ekspertlər tədqiqat zamanı oyuncaqlarla oynayan və elektron qurğulardan istifadə edən 3 və 4 yaşında uşaqları müqayisə ediblər. Mütəxəssislər müasir qacetlərin uşaqların fiziki, əqli və sosial inkişafına necə təsir etməsini öyrənmək istəyiblər. Məlum olub ki, planşetlə oynayan uşaqların 15 dəqiqə ərzində yuxarı ətrafları ilə hərəkətləri onların oyuncaqlarla oynaması ilə müqayisədə daha az, lakin televizora baxdıqları vəziyyətlə müqayisədə daha çox olub. Məsələn, oyuncaqlarla oynayan uşaqlar televizora baxdıqları vəziyyətdən fərqli olaraq 6 dəfə çox, planşetdən istifadə edərkən 3 dəfə çox yuxarı ətrafları ilə hərəkət ediblər. Oyuncaqlarla oynayan uşaqlar planşetdən istifadə edən uşaqlarla müqayisədə bütün bədənləri ilə 2 dəfə çox, televizora baxan uşaqlarla müqayisədə 3 dəfə çox hərəkət ediblər.

Ekspertlər olduqca cəlbedici sensor qurğularından istifadə olunmasının uşaq əzələ və sümüklərinin iki səbəbə görə düzgün inkişaf etməməsinə gətirib çıxaracağından narahatlıq keçirirlər. Birincisi, uşaqlar oturaq vəziyyətdə, özü də əzələ və sümüklərin inkişafına mane olan oyunların arxasında çox vaxt keçirir. İkincisi, planşetdən istifadə edən uşaqlar tez-tez qeyri-münasib formada oturırlar ki, bu da onlarda boyun ağrılarını adi hala çevirər.

# Jurnalistlər bölgələrdəki tibb müəssisələrində yaradılan şəraitlə tanış olublar

**◆Səhiyyə Nazirliyi regionlarda fəaliyyət göstərən tibb müəssislərində yaradılan şəraitlə, görülən işlərlə tanış olmaq və real vəziyyətlə bağlı əhalini məlumatlandırmaq məqsədilə Oğuz, Balakən və Şəki rayonlarına mediatur təşkil edib.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Oğuz Rayon Mərkəzi Xəstəxanası ilə tanışlıq zamanı baş həkimin müavini İradə Məmmədova jurnalistlərə 2009-cu ildə istifadəyə verilən tibb ocağı barədə məlumat verib: "Burada 2 min insana xidmət göstərilməsi üçün hər cür şərait yaradılıb. Xəstəxanada rentgen, filioqraf aparatı, USM, exokardioqrafiya, laboratoriya və digər xidmətlər var. Eyni zamanda, dərman təminatı da yüksək səviyyədə təşkil edilib. Bundan başqa, nikaha girən cütlüklər də burada müayinə olunur". Onun sözlərinə görə, xəstəxanaya gün ərzində təxminən 100-120 xəstə müraciət edir: "Onların içərisində şəkərli diabet xəstələri çoxluq təşkil edir. Turizm zonası olduğundan əcnəbilər də xəstəxanamıza müraciət edirlər. Oğuzda infeksion xəstəliklərə demək olar çox az hallarda rast gəlinir. Çünki burada əhalinin sıxlığı azdır. Baş həkimin müavini deyib ki, hazırda rayon üzrə 72 həkim var. Onlardan 35-i mərkəzi xəstəxanada çalışır.

Sonra media nümayəndələri Balakən Rayon Mərkəzi Xəstəxanasında olublar. Xəstəxana barədə jurnalistlərə məlumat verən tibb müəssisəsinin baş həkimi Hacıömər Nuriyev



vurğulayıb ki, xəstəxana 2011-ci ildə istifadəyə verilib. Xəstəxanada 15 şöbə fəaliyyət göstərir. Şöbələrin hamısında kadrların yerləşməsi bütün ixtisaslar üzrə tam təmin edilib. Poliklinika şöbəsində rentgen kabinetində, kardiologiya, oftalmologiya, qastroskopiya və kolonoskopiya kabinetləri var. Respublikanın şimal-qərb bölgəsi stomatoloji xəstəliklərə görə endemik zonadır. Ona görə də bölgədə yaşayan insanların bu xidmətə böyük ehtiyac duyduğu nəzərə alınaraq xəstəxanada 3 stomatologiya kabineti yaradılıb. "Xəstəxanada 148 həkim, 504 orta tibb işçisi çalışır. Balakən ucqar zona və rütubətli olduğundan əsasən ağciyər, bronxit, eləcə də onurğa və revmatizm xəstəliklərinə meyillilik çoxdur. Ona görə də müraciətlərin çoxluğu bu xəstəliklər üzrədir", - deyə baş həkim əlavə edib.

Turun son ünvanı Şəki Rayon Mərkəzi Xəstəxanası olub. Tibb müəssisəsinin baş həkimi Məcid Əliyev jurnalistlərə deyib ki, 100 çarpayılıq xəstəxana 2011-ci ilin noyabrında istifadəyə verilib: "Əsas bina 6 korpusdan ibarətdir. Burada təcili tibbi yardım, reanimasiya, iki cərrahiyyə, onkoloji xəstəliklər, göz xəstəlikləri, diaqnostika, laboratoriya, dializ və poliklinika, hemodializ şöbələri fəaliyyət göstərir. Şöbələrdə quraşdırılan avadanlıq tibb elminin ən son nailiyyətlərinə əsaslanır. Burada ultrasəslə müayinə, hemodializ, anesteziya avadanlığı, rentgenoqrafiya, kompyuter-tomoqrafiya, laboratoriya, süni nəfəs aparatları quraşdırılıb. Bundan başqa, burada hemodializ korpusları var. Hemodializ şöbəsində 40-a yaxın xəstəyə yardım edilir. Əvvəllər xəstələr və onların yaxınları hemodializ əməliyyatı üçün ya Bakıya, yaxud da yaxın rayonlardakı diaqnostika mərkəzlərinə getməli olurdular. Artıq xəstələr üçün burada bütün şərait var. Xəstəxanada həmçinin müasir 4D ultrasəslə müayinə aparatı qoyulub". Onun sözlərinə görə, xəstəxana xarici ölkələrdə hazırlıq kurslarını keçmiş tibb işçiləri ilə təmin edilib və burada 450-yə yaxın həkim çalışır. Bütün ixtisaslar üzrə cəmi 1-2 vakant yer var.

# Əlaçı məzunlarımız

## Ələkbərova Nərgiz Elmar qızı



1993-cü il aprelin 14-də Bakıda anadan olub. 2010-cu ildə Bakı şəhərindəki 23 saylı orta məktəbi qızıl medalla bitirib və həmin il ATU-un I müalicə-profilaktika fakültəsinə daxil olub. N.Ələkbərova həmişə özünün ictimai fəallığı ilə seçilib. Avropadan gələn qonaqların iştirakı ilə keçirilən forum və seminarlarda (o cümlədən Tempus) yaxından iştirak edib. SIFE-ATU komandasının fəal üzvü olub. Hansı ki, həmin komanda ABŞ-da ( Vaşinqton) keçirilmiş yarışmada Azərbaycanı təmsil edib və qalib gəlibdir. Ötən ilin aprelində Bakıda "Azərbaycan-Almaniya-Türkiyə" Tibb Konqresində iştirak edib və "Endoskopik ultrasonoqrafiya" mövzusunda məruzə ilə çıxış edərək III yer tutub. Bundan başqa o, iki dəfə Almaniyada endoskopiya üzrə tibbi təcrübə keçib. Gələcəkdə qastroenteroloq-endoskopist olmaq və tibbin bu sahəsinə öz töhfəsini vermək arzusundadır.

Təhsilini inkişaf etmiş Avropa ölkələrinin birində davam etdirmək niyyətindədir.

Xarici dillərdən rus, fransız, alman və ingilis dillərini bilir. Boş vaxtlarında rəngli boya ilə rəsm əsərləri çəkir.

# Gənclər məsciddə qan veriblər

**◆ «Məşədi Dadaş» məscidində talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qanvermə aksiyası təşkil edilib.**



Aksiya məscidin icması, Mərkəzi Qan Bankı və Azərbaycan Talassemiya Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

Talassemiya Federasiyasının mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yüzdən çox gəncin qatıldığı aksiya uğurla başa çatıb və yardıma ehtiyacı olan uşaqlar üçün kifayət qədər qan toplanılıb.

Aksiyada iştirak edənlər qan xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün könüllü qan verməyin xeyirxah və savab iş olduğunu bildiriblər.

# Arıqlamaq üçün kompyuter oyunu yaradılıb

**◆ Amerikalı alimlər ziyanlı qida maddələrinə qeyri-sağlam meyil üzərində nəzarət edən yeni kompyuter oyunu və onun mobil əlavəsini yaradıblar.**

AZƏRTAC "wek.ru" saytına istinadla xəbər verir ki, yeni layihənin müəllifləri Dreksel Universitetinin alimləridir. Onlar bu oyunu insanın inhibitor nəzarətini yaxşılaşdırmaq üçün fikirləşiblər. Bu xüsusi proses baş-beyində gedir və insanı bütün mümkün impulsiv arzu və meyillərinin əsiri olmaqdan çəkindirir. İnhibitor nəzarəti insanın yaxınlıqdakı yeməkxanada pitsa və ya kartof qızartmasının cəlbedici ətrini duyarkən



aktivləşir. Yeni mobil əlavə insanın dad seçimini də müəyyən edə bilir. İnsan sağlam qidadan əl çəkmək istəyəndə mobil əlavə onun faydalı rasiona qayıtması üçün bir neçə fərdi strategiya təklif edə bilər.

### Etibarsız sayılır

Hərbi Tibb Fakültəsinin VI kurs, 1122[a] qrup tələbəsi Əlizadə Ülfət Arif oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Hərbi Tibb Fakültəsinin IV kurs tələbəsi Əmrahov Həbibulla Sahib oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi, əczaçılıq fakültəsinin HT və ictimai fənlər kafedrasının əməkdaşları latın dili kafedrasının müdiri Bahadur Hüseynova qardaşı

**Adil müəllimin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağız və üz- çənə cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın professoru

**Teymur Əsəd oğlu Babayevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

I daxili xəstəliklər və reanimatologiya kafedrasının əməkdaşları kafedranın assistenti Vahid Hüseynova anası

**Rəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Nevrologiya və tibbi genetika kafedrasının əməkdaşları kafedranın keçmiş əməkdaşı, assistent

**Fəridə Məmməd qızı Bayramovanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98[c]**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@amu.edu.az**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 320